*UOT 371*

***Fəridə Elçin qızı Kazımlı***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Respublikasının Təhsil İnstitutu*
*ORCID: https://orcid.org/0000-0002-1503-6888*

# AZƏRBAYCAN ALİ TƏHSİL SİSTEMİNİN DÜNYA ALİ TƏHSİL MƏKANINA İNTEQRASİYASI: MÜASİR ÇAĞIRIŞLAR VƏ TƏLƏBLƏR

***Фарида Эльчин гызы Казымлы***
*докторант по программе доктора философии*
*Институт Образования Азербайджанской Республики*

# ИНТЕГРАЦИЯ СИСТЕМЫ ВЫСШЕГО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНА В МИРОВОЕ ВЫСШЕЕ ОБРАЗОВАТЕЛЬНОЕ ПРОСТРАНСТВО: СОВРЕМЕННЫЕ ВЫЗОВЫ И ТРЕБОВАНИЯ

***Farida Elchin Kazimly***
doctor of philosophy in pedagogy
*İnstitute of Education of the Republic of Azerbaijan*

# INTEGRATİON OF AZERBAİJAN'S HİGHER EDUCATİON SYSTEM İNTO THE WORLD HİGHER EDUCATİON SPACE: MODERN CHALLENGES AND REQUİREMENTS

**Xülasə.** Məqalədə ölkəmizin ali təhsil sisteminin inkişaf parametrləri içərisində yer alan beynəlxalq müstəviyə inteqrasiya və müsbət təcrübənin öyrənilməsi təhlil edilir. İlk öncə beynəlxalq təşkilatların bu istiqamətdə atdıqları nəzəri və praktiki addımlar qeyd olunur. Azərbaycanda dövlət səviyyəsində ali təhsilin inkişafına dəstək meyarları araşdırılır. Həmçinin, beynəlxalq təhsil sisteminə keçidin müsbət və mənfi tərəfləri, Azərbaycanın qəbul etdiyi beynəlxalq təhsil standartları haqqında məlumat verilir.

Qlobal mühitdə təhsil sisteminin iqtisadiyyata, geostrateji mühitə və ölkəmizin beynəlxalq nüfuzuna təsirinin araşdırılması böyük əhəmiyyət kəsb edir. Belə ki, müxtəlif sahələr üzrə ixtisaslı kadrların hazırlanmasında tələb və təklifin müəyyən edilməsi, təhsildə kadr hazırlığı siyasəti, onun pedaqoji aspektləri böyük ölçüdə ölkənin gələcək inkişafına təsir göstərir. Azərbaycanın sahib olduğu təbii sərvətlərə sahib olmayan bir sıra ölkələrin yüksək inkişaf göstəricilərinin məhz təhsil və innovasiya üzərində qurulduğu qeyd edilməlidir. Texnologiya inqilabının sənaye inqilabını üstələdiyi bir dövrdə əl əməyi və avtomatlaşdırılmış əmək mühiti yerini artıq daha modern bir mühitə - süni intellektin inkişafına və smart texnologiyaların tətbiqinə verməkdədir. Dünya əhalisinin sayı artdıqca ölkələrin içməli su və ərzaq siyasəti, təbii resurslardan səmərəli və ekoloji cəhətdən təmiz istifadə prinsipləri məhz peşəkar mütəxəssislər sayəsində mümkün olur.

Məqalədə Azərbaycanın inteqrasiya siyasəti yürütdüyü beynəlxalq təhsil sistemlərinin səmərəliliyi və ortaq mexanizm yolları da araşdırılmaqdadır.

***Açar sözlər:*** *ali təhsil, inteqrasiya, Bolonya sistemi, BMT, xaricdə təhsil, texnologiya, intellekt*

**Резюме.** В статье анализируется интеграция международного уровня и изучение положительного опыта в рамках параметров развития системы высшего образования нашей страны. В первую очередь упоминаются теоретические и практические шаги, предпринятые международными организациями в этом направлении. Исследуются критерии поддержки развития высшего образования на государственном уровне в Азербайджане. Также представлена информация о положительных и отрицательных сторонах перехода на международную систему образования, принятые в Азербайджане международные стандарты образования.

В глобальной среде большое значение имеет изучение влияния системы образования на экономику, геостратегическую среду и международную репутацию нашей страны. Таким образом, опреде-

ление спроса и предложения в подготовке квалифицированных кадров в различных областях, кадровая политика в сфере образования, ее педагогические аспекты в значительной степени влияют на будущее развитие страны. Следует отметить, что высокие показатели развития ряда стран, не обладающих природными ресурсами, которыми обладает Азербайджан, основаны на образовании и инновациях. В то время, когда технологическая революция обогнала промышленную революцию, ручной труд и автоматизированная рабочая среда уже уступают место более ультрасовременной среде – развитию искусственного интеллекта и применению умных технологий. По мере увеличения населения планеты питьевая вода и продовольственная политика стран, принципы эффективного и экологически чистого использования природных ресурсов возможны только благодаря профессиональным специалистам.

В статье также рассматриваются эффективность международных систем образования и общие механизмы интеграционной политики Азербайджана.

***Ключевые слова:*** *высшее образование, интеграция, Болонская система, ООН, обучение за рубежом, технологии, интеллект*

**Summary.** The article analyzes the integration of the international level and the study of positive experience within the development parameters of the higher education system of our country. First of all, the theoretical and practical steps taken by international organizations in this direction are mentioned. Criteria for supporting the development of higher education at the state level in Azerbaijan are being investigated. Also, information is provided about the positive and negative aspects of the transition to the international education system, the international education standards adopted by Azerbaijan.

In the global environment, the study of the impact of the education system on the economy, geostrategic environment and the international reputation of our country is of great importance. Thus, the determination of demand and supply in the training of qualified personnel in various fields, personnel training policy in education, and its pedagogical aspects greatly affect the future development of the country. It should be noted that the high development indicators of a number of countries that do not have the natural resources that Azerbaijan has are based on education and innovation. At a time when the technological revolution has overtaken the industrial revolution, the manual labor and automated work environment are already giving way to a more ultra-modern environment - the development of artificial intelligence and the application of smart technologies. As the world's population increases, the drinking water and food policy of countries, the principles of efficient and ecologically clean use of natural resources are possible only thanks to professional experts.

In the article, the effectiveness of the international education systems and common mechanism ways of Azerbaijan's integration policy are also examined.

***Keywords:*** *higher education, integration, Bologna system, UN, study abroad, technology, intelligence*

Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının qəbul etdiyi 25 Sentyabr 2015-ci il tarixli Qətnamədə 2030-cu ilə qədər Dünyanın dayanıqlı inkişaf meyarlarının müəyyənləşdirilməsi əks olunmuşdur. Qətnamənin hədəfləri arasında (Dördüncü hədəf) inklüziv və bərabər keyfiyyətli təhsilin təmin edilməsi və hər kəs üçün ömürboyu təhsil imkanlarının təşviqi müddəası da yer alır. Hədəfdə qeyd olunur ki, 2030-cu ilə qədər bütün qadınların və kişilərin əlverişli və keyfiyyətli peşə və ali təhsilə, o cümlədən universitet təhsilinə bərabər çıxış imkanlarının təmin edilməsi, layiqli iş və sahibkarlıq üçün məşğulluq və peşə imkanları da daxil olmaqla, tələb olunan bacarıqlara malik gənclərin və böyüklərin sayını əhəmiyyətli dərəcədə artırmaq mühüm məqsədlərdən biridir. Müddəada inkişaf etməkdə olan və ya az inkişaf etmiş ölkələrə dəstək məqsədilə müasir texnoloji inqilablara asan çıxışın təmin olunması vacib hesab edilir. Burada təhsil imkanlarının peşə potensialı ilə eyni müddəa içərisində yer alması, müasir dünyada ali təhsilin tələb-təklif şərtlərilə daha sıx uzlaşmış şəkildə hədəf alındığının əyani sübutudur (BMT, Qətnamə, 2015). ***Mövzunun aktuallığı*** məhz bu hədəflərdə Azərbaycanın da milli maraqları çərçivəsində aktiv iştirakını özündə ehtiva edir. Ölkənin ali təhsil sisteminin istər pedaqoji, istərsə də sosial-iqtisadi baxımdan cəmiyyətlə bilavasitə uzlaşmasının böyük önəmi vardır. Azərbaycanın təhsil sisteminin tənzimlənməsində həlledici rolu dövlət siyasəti oynasa da, burada müəyyən özəl innovativ təşəbbüslər də böyük əhəmiyyətə malikdir. Xüsusilə özəl ali

təhsil müəssisələrinin təhsil mexanizmləri yeni çağırışlara daha həssas reaksiya göstərmək qabiliyyətinə malikdir. Lakin burada ənənəvi təhsil sisteminin faydalarını da nəzərə almaq mütləqdir. Məsələni bir neçə prizmadan ələ almaq lazımdır.

***Məqalənin elmi yeniliyi.*** Məqalədə bir sıra nəzəri-elmi yeniliklər vardır:

1. Azərbaycanda ali təhsil sisteminin beynəlxalq platformaya inteqrasiyasının nəzəri və praktiki tərəfləri araşdırılmışdır.
2. Azərbaycanda ali təhsil sisteminin beynəlxalq inteqrasiyasına dövlət dəstəyinin hüquqi aspektləri qeyd olunmuşdur.
3. Müasir dövrdə bir sıra ölkələrdə ali təhsil sistemlərinin həm daxili, həm də xarici inteqrativ parametrlərindən nümunələr gətirilmişdir. Azərbaycanın da sahib olduğu ənənəvi təhsil sistemindən Bolonya sisteminə keçiddə mövcud oxşar və fərqli inteqrasiya formaları təqdim edilmişdir.

***Mövzunun praktik əhəmiyyəti.*** Azərbaycan Respublikasında müxtəlif peşə sahələri üzrə ixtisaslı kadrların hazırlanması ölkənin sosial-iqtisadi inkişafı üçün böyük əhəmiyyət kəsb edir. Strateji insan kapitalının ölkənin milli maraqlarına uyğun formada yetişdirilməsi bilavasitə milli təhlükəsizlik məsələsidir. Məhz bununla əlaqədar olaraq, Azərbaycanın beynəlxalq ali təhsil sisteminə inteqrasiyasının xarici və daxili təsir faktorlarını müxtəlif yönlərdən araşdırmaq böyük əhəmiyyətə malikdir. Bunun üçün ilk növbədə ölkəmizin qoşulduğu beynəlxalq təhsil sistemlərinə, təhsil sahəsində götürdüyü beynəlxalq öhdəliklərə nəzər salmaq vacibdir. 1999-cu il iyunun 19-da Avropanın otuza yaxın ölkəsi təhsil nazirləri səviyyəsində "Avropa Ali Təhsil məkanı" Bəyannaməsini (Bolonya bəyannaməsi) qəbul etdilər. Bəyannamədə iki pilləli təhsil sistemi, təhsilin keyfiyyətini gücləndirilməsi, tələbə kredit sisteminin tətbiqi, ölkə diplomlarının Bəyannaməni imzalamış ölkələr daxilində tanınması və digər müddəalar əks olunub. Azərbaycan bu sistemə qoşulmaq üçün ilk addım 2004-cü ildə Fransanın Strasburq şəhərində Qafqaz ölkələrinin təhsil nazirlərinin konfransı keçirilmiş, ölkəmizin Bolonya sisteminə qoşulması məqsədilə Təhsil Nazirliyi tərəfindən hazırlanan hesabat Avropa Komissiyasına təqdim edilmişdi. 2005-ci il 19 may tarixində Norveçdə Azərbaycan Respublikası təhsil nazirinin imzası ilə ölkəmiz rəsmən Bolonya sisteminə qoşulmuşdu. Bu sistemə qoşulmaqda əsas məqsəd Azərbaycanın Avropa ali təhsil sisteminə inteqrasiyasını sürətləndirmək olmuşdur (Ağaverdiyeva, 2010). Burada dövlətin ali təhsil sistemilə bağlı qanunvericilik aktlarını nəzərdən keçirmək böyük əhəmiyyət kəsb edir.

2006-cı ildə "Bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturu"nun hazırlanması ilə 2006-2007-ci tədris ilində ilk dəfə birinci kurslar üzərində Bolonya sistemi tətbiq olunmağa başladı. Bu sistemin ən müsbət təsirlərindən biri ölkə üzrə təqdim olunan diplomların xarici ölkələrdə tanınması prosesinin sürətlənməsi idi. Azərbaycan ali təhsil sisteminin beynəlxalq müstəviyə inteqrasiyasında bu sistemin tətbiqi önəmli rol oynadı. Dövlət tərəfindən bu sistemin daha səmərəli və aktiv formada həyata keçməsi üçün 2007-ci ildə Nazirlər Kabineti tərəfindən müvafiq qərar qəbul edilmişdir. Qərarda belə bir müddəa mövcuddur: "*Cəmiyyətin informasiyalaşması, dünyada gedən qloballaşma prosesləri yeni təhsil modellərini formalaşdırır. Bu modellərin əsasını dünya təcrübəsi, cəmiyyət, insan idrakı və təhsilin dinamik olması, birdəfəlik təhsildən fasiləsiz təhsil prinsipinə keçid ideyası təşkil edir. İnkişaf etmiş ölkələrdə ənənəvi təhsil formaları yeni təhsil modellərinə inteqrasiya olunur və vahid təhsil məkanı yaranır. Cəmiyyətin informasiyalaşması, demokratikləşməsi, cəmiyyətdə təhsilin rolunun artması, Azərbaycan Respublikasının Avropa və dünya təhsil məkanına inteqrasiyası, Bolonya prosesinə qoşulması bütövlükdə təhsil sistemində, o cümlədən fasiləsiz pedaqoji təhsil sistemində əsaslı islahatların aparılması zərurətini yaradır. Aydındır ki, bütövlükdə təhsil sistemində aparılan islahatların keyfiyyəti və səmərəliliyi ilk növbədə pedaqoji kadr hazırlığı sferasında aparılan islahatlarla əlaqədardır. Çünki son nəticədə bütün təhsil sisteminin və onun ayrı-ayrı sahələrinin inkişafı və səmərəliliyi pedaqoji kadrların fəaliyyəti ilə təmin olunur."* (AR Nazirlər Kabinetinin Qərarı, 25.06.2007, № 102). Bu müddəadan göründüyü kimi beynəlxalq ali təhsil sisteminə inteqrasiya təkcə tələbələrin təhsil sisteminin formalaşması deyil, eyni zamanda pedaqoji kadr hazırlığı sahəsində də mühüm dəyişikliklərin həyata keçirilməsini zəruri edir. Bu zaman pedaqoji kadrların ha-

zırlanmasında bu və ya digər şəkildə rol oynayan ali təhsil müəssisələrinin üzərinə daha çox vəzifə düşür. Belə ki, ali təhsil sistemində müxtəlif peşələr üzrə kadr hazırlamalı olan gələcək mütəxəssislərin ilk öncə özlərinin daha peşəkar formada təhsil almaları vacibdir. Bu məqsədlə Dünya Bankı ilə birlikdə Təhsil Sektorunun İnkişafı Layihəsinin əsas strateji hədəflərindən biri müəllimlərin hazırlanması və təhsil sisteminin müəllimlərlə təmin edilməsi olmuşdur. Ümumilikdə Bolonya sistemi bəhs etdiyimiz inteqrasiyanın sürətlənməsində mühüm rol oynamışdır.

**Tələbələrin xarici ali təhsil müəssisələrində təhsil alması üzrə dövlət siyasəti**

Azərbaycan ali təhsil sisteminin dünyaya inteqrasiyasında əhəmiyyətli funksiyaya malik layihələrdən biri də tələbələrimizin xarici ali təhsil müəssisələrində dərs almasıdır. Bunun üçün Azərbaycan hökuməti tərəfindən bir neçə dəfə müvafiq qərarlar və proqramlar qəbul edilmişdir.

İlk bu cür qərar "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə ölkə başçısının 16 aprel 2007-ci il tarixli müvafiq Sərəncamıdır. Bu Sərəncam 2006-cı il 19 oktyabr tarixli 1746 nömrəli Sərəncama uyğun olaraq hazırlanmışdır. Bu Sərəncamla təsdiq olunmuş dövlət proqramında qeyd olunduğu kimi 2007-ci ildə dövlət xətti ilə xarici ölkələrin ali təhsil müəssisələrində təhsil alan minə yaxın azərbaycanlı tələbədən təqribən 700 nəfəri Türkiyə Cümhuriyyəti, 180 şəxs Rusiya Federasiyası, 50-yə yaxın şəxs Misir Ərəb Respublikası, 20-yə yaxın şəxs Çin Xalq Respublikası, digərləri isə hər ölkə üzrə bir neçə nəfər olmaqla Çexiya, Slovakiya, Rumıniya və Malayziyanın payına düşürdü. Bu tələbələrin yarıdan çoxu magistratura, aspirantura, kliniki ordinatura, doktorantura və digər diplomdansonrakı proqramlar üzrə təhsil alanlar idi. Dövlət Proqramının əsas məqsədi olaraq ölkənin güclü kadr potensialı ilə təmin olunması göstərilirdi. Bu proqramla Azərbaycanda dövlət siyasəti olaraq iki əsas meyarın formalaşmasının təməli qoyuldu; informasiya və kommunikasiya texnologiyalarına əsaslanan bilik iqtisadiyyatının formalaşması və distant təhsil də daxil olmaqla qabaqcıl xarici və Azərbaycan təhsil ocaqları ilə müvafiq elmi-metodoloji təcrübə mübadiləsi (tvinninq) proqramlarının təşkil olunması. Ölkənin kadr potensialının formalaşmasında qeyd olunan dövlət siyasətinin başlıca özəlliklərindən biri də "məcburi xidmət" prinsipi idi. Bu prinsip əsasında bu proqram çərçivəsində xaricdə təhsil alan tələbələr təhsillərini başa vurduqdan sonra Azərbaycan Respublikasına qayıdıb ən azı beş il işləmələrini nəzərdə tutan müqavilə imzalamalı idilər. Öhdəlik müqaviləsində təhsil alan şəxslərin təhsillərini başa vurduqdan sonra altı ay müddətində ölkəyə qayıtmadıqları təqdirdə təhsilə görə ödənilmiş xərclərinin tam şəkildə geri ödənilməsi məsuliyyəti nəzərdə tutulurdu. Xaricdə dövlət hesabına təhsil almağa göndərilən tələbələrin ümumi sayı müvafiq illər üzrə beş min nəfər civarında nəzərdə tutulmuşdu.

2018-ci ilin noyabrında müvafiq Sərəncamla "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" təsdiq edildi. Proqramda dünyanın aparıcı təhsil müəssisələri ilə ölkəmizin ali təhsil müəssisələri arasında beynəlxalq ikili diplom proqramlarının təsis olunması nəzərdə tutulurdu. Eyni zamanda xaricdə doktorantura səviyyəsində təhsilin maliyyələşdirilməsi həyata keçirilirdi. Bu proqram çərçivəsində bir sıra yeni qaydalar müəyyən olunaraq Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmişdi. Proqram çərçivəsində 4 ikili diplom proqramının icrasına başlanılmışdır. Hazırda ABŞ-ın Corc Vaşinqton Universiteti ilə Azərbaycan Dövlət Pedaqoji Universiteti və "ADA" Universiteti, Bakı Mühəndislik Universiteti ilə Koreya Respublikasının İnha Universiteti, Türkiyənin Ege Universiteti ilə Azərbaycan Dövlət Aqrar Universitetinin ikili diplom proqramları həyata keçirilir (AR Prezidentinin Sərəncamı, 28 fevral 2022-ci il, № 3163). Qəbul edilmiş növbəti Proqram 2022-2026-cı illəri əhatə edir ki, bu proqram çərçivəsində ümumilikdə iki minə yaxın tələbənin bakalavr və magistr pilləsi üzrə təhsil alması nəzərdə tutulur. Bu proqramın gələcəkdə də davam etdiriləcəyi istisna deyil. Qeyd edilən proqramlar üzrə dövlət siyasətinin başlıca istiqamətləri istedadlı kadrların dövlətə lazım olan sahələr üzrə biliklərə yiyələnməsi və peşəkar kadr olaraq ölkə quruculuğunun inkişafına xidmət göstərmələridir. 2022-2026-cı illər üzrə Dövlət Proqramında maliyyə mənbələri olaraq ilk dəfə Dövlət Neft Fondu ilə yanaşı beynəlxalq təşki-

latların (fondların) texniki və maliyyə yardımları, kreditlər və qrantlar, xarici və yerli hüquqi və fiziki şəxslərin ianələri də qeyd olunur ki, bu da özəl sektorun bu sahəyə marağının cəlb olunmasına təkan vermək məqsədi güdür.

**Beynəlxalq təcrübədə müasir ali təhsilin inteqrativ parametrləri**

Son olaraq ali təhsilin inteqrasiyası, elm və təhsil miqrasiyasının beynəlxalq təcrübələrinə nəzər salmaq vacibdir. Misal olaraq, Rusiya Federasiyası kimi geniş ərazilərə və çoxsaylı elm və təhsil strukturlarına malik ölkələrdə ali təhsilin inteqrasiyası ilk növbədə daxili resurslar üzərində baş verir. Yəni ali təhsil ocaqları və elmi müəssisələrin ortaq layihələr həyata keçirməsi, elmi tədqiqatlar üzrə Rusiya Elmlər Akademiyası və Təhsil Nazirliyinin tabeliyində olan qurumların birgə fəaliyyəti nəticəsində elm və təhsilin müəssisələrarası inteqrasiyası baş verməkdədir. 2013-2018-ci illər ərzində Rusiyada aparılmış köklü islahatlar nəticəsində Rusiya Elmlər Akademiyası əvvəlcə Elmi Təşkilatlar üzrə Federal Agentliyin, daha sonra isə yeni yaradılmış Rusiya Federasiyası Elm və Ali Təhsil Nazirliyinin balansına verilmişdir. Bəzi rus mütəxəssislərin fikrincə elm və təhsilin daxili inteqrasiyası ixtisaslı kadrların hazırlanmasında mühüm töhfə verə bilər. Burada tələbələrin əmək bazarına inteqrasiya prosesinin də sürətlənməsi mühüm amil kimi nəzərdən keçirilir (Strogin, 2007). Bu daxili inteqrasiya nümunəsi ölkəmizdə də baş vermiş, 28 İyul 2022-ci il tarixindən etibarən Azərbaycan Milli Elmlər Akademiyasının bir çox elmi müəssisələri yeni yaradılmış Elm və Təhsil Nazirliyinin balansına verilmişdir. Bu addım Azərbaycanda elmi tədqiqatların yeni səviyyəyə qaldırılması, həmçinin, ali təhsil ocaqlarında elmi tədqiqatların genişlənməsi hədəfini güdür. Bu dəyişiklik nəticəsində Azərbaycanın beynəlxalq elm və təhsil sisteminə inteqrasiyasının sürətlənəcəyini də əminliklə söyləmək olar.

Dünyanın qabaqcıl təhsil sistemlərinin yer aldığı Skandinaviya ölkələrində təhsil sistemində inteqrasiya artıq ibtidai sinifdən və orta təhsildən başlayır. Misal olaraq, Finlandiyada İsveç dilində və əksinə təhsil prosesi mümkündür. Burada şagirdin lokasiya şəraiti, milli identikliyi, təhsil aldığı müəssisənin ümumi komponentləri mühüm rol oynayır. Şagirdin valideynləri istədiyi təqdirdə övlad hər iki dildə eyni anda təhsil ala bilər. Finlandiyanın son illər üzləşdiyi praktiki problemlərdən biri ölkəyə miqrant axınının güclənməsidir. Bu proses ali təhsil sistemində bir sıra yeniliklərə yol açmışdır. Finlandiyadakı ali təhsil müəssisələri beynəlxalq tələbələri və işçiləri işə götürmək üzrə uzun tarixə malikdir, lakin bu yeni gələn miqrantların inteqrasiyasını asanlaşdırmaq üçün bir növ hazırlıqsız görünürdü. Onların bir çoxu dərəcələri haqqında sertifikatlar və ya əvvəlki təhsillərinin sənədləri olmadan evlərini tərk etməli olmuşdular, buna görə də onlar üçün Finlandiya institutlarına yol yaratmaq asan deyildi.

Vəziyyəti dərk edən Təhsil və Mədəniyyət Nazirliyi bir universitet və bir tətbiqi elmlər universiteti, Jyväskylä Universiteti və Metropolia Tətbiqi Elmlər Universiteti ilə pilot layihəyə əhəmiyyətli investisiya yatırmaq qərarına gəldi. Layihə tezliklə “Finlandiyada Ali Təhsildə İmmiqrantlara Dəstək” və ya SIMHE adlandırıldı. SIMHE-nin diqqət mərkəzində ali təhsil dərəcəsini tamamlamış və ya ali təhsil almaq hüququ qazanmış immiqrantlar üçün uyğunlaşdırılmış bələdçilik və məsləhət xidmətlərini və əvvəlki biliklərin tanınmasını inkişaf etdirmək idi.

Pilot layihə ilkin olaraq beynəlxalq qaçqın böhranına cavab olaraq başladılsa da və onun xidmətləri yeni gələn sığınacaq axtaran şəxslərə ünvanlansa da tezliklə o, digər mənşəli qaçqınlar və miqrantlar üçün də xidmətləri əhatə etməyə başlayıb. SIMHE institutları onların işini dəstəkləmək üçün regional, milli və beynəlxalq şəbəkələr qurmuş və mühacirlərin Finlandiyada ali təhsilə inteqrasiyasını dəstəkləmək üçün bir sıra gələcək təşəbbüslərə yol açmışdır. Bu gün SIMHE institutlarının şəbəkəsi üç universitetdən (Jyväskylä, Helsinki və Turku) və üç tətbiqi elmlər universitetindən (Helsinkidəki Metropoliya, Joensuudakı Kareliya və Ouludakı OAMK) ibarətdir, bu müəssisələrin hamısı nazirlikdən strateji maliyyə alır və son məqsədi Finlandiyadakı bütün ali məktəbləri əhatə etmək üçün şəbəkənin daha da genişləndirilməsidir (Grönlund, 2019). Ölkəmiz də bu praktikadan yararlanaraq, azad olunmuş ərazilərimizdə yenicə məskunlaşan yerli əhalinin təhsil keyfiyyətlərinin yaxşılaşdırılması və burada gələcəkdə ali təhsil ocaqlarının filiallarının yaradılmasını təmin edə bilər. Xaricdən dəvət olunan mütəxəssislər və

yaxud xaricdə təhsil alan yerli mütəxəssislərimiz milli kadrlar olaraq ərazilərimizin bərpasında və ölkənin ümumi ali təhsil sisteminə inteqrasiyasında mühüm rol oynaya bilər. Xüsusilə ultramüasir ixtisasların tədrisi ilə bağlı pilot müəssisələrin yaradılması burada təhsilin daha da cəlbedici olması üçün zəmin yarada bilər.

**Nəticə**

Azərbaycanın öz təhsil potensialını genişləndirməsi üçün hər cür imkanları vardır. Burada yeni dövrün yeni tələbləri, yeni ixtisas və iş sahələrinin yaradılması, dövlət dəstəyi, gənclərimizin bilik və potensiallarını artırmaq istəkləri mühüm rol oynayan amillərdir. Ali təhsilin iqtisadi diversifikasiyasının üstün cəhətlərindən biri hər kəsin ali təhsil haqqında sənəd xatirinə təhsil almasının qarşısını almaqdır. Peşə məktəblərinin fəaliyyətinin təşviq edilməsi, təhsil müddətinin müxtəlif ixtisaslar üzrə qısaldılması, beynəlxalq peşə məktəblərinin praktikasının tətbiqi ali təhsil ocaqlarının üzərinə düşən yükü əhəmiyyətli dərəcədə azalda bilər. Nəticədə istər Azərbaycan dövləti, istərsə də özəl sektor qənaətli vaxtla yüksək ixtisaslı kadrlar əldə edə bilər. Bunun üçün ən mühüm amillərdən biri ölkədə yetişən hər bir nəslə uyğun ideal pedaqoji kadrların və pedaqoji keyfiyyət indikatorlarının müəyyən edilməsidir.

**Ədəbiyyat:**


1. BMT Baş Assambleyası tərəfindən qəbul edilən qətnamə. (2015). 70-ci sessiya, 25 sentyabr 2015-ci il, Dünyamızın dəyişdirilməsi: Davamlı İnkişaf üçün 2030 Gündəliyi. 44 s., s. 20 Elektron resurs: https://unctad.org/system/files/official-document/ares70d1_ru.pdf
2. Ağaverdiyeva N. (2010). Ali təhsildə Boloniya sistemi. Səs qəzeti - 26 iyun. - s. 10. Elektron resurs: http://www.anl.az/down/meqale/ses/2010/iyun/125724.htm
3. Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyasının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. 25 İyun 2007-ci il. № 102.
4. "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022–2026-cı illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 28 fevral 2022-ci il. № 3163. Elektron resurs: https://e-qanun.az/framework/49209
5. Strongin R. Gurbatov S. Petrov A. (2007). İntegratsia nauki, obrazovania i praktiki – klyucevoy faktor obespecenia podgotovki spetsialistov. Vestnik Nijegorodskogo universiteta im. N.İ. Lobacevskogo, № 2, -c.11-27
6. Grönlund A. (2019). How universities are supporting immigrant integration in Finland. 30 October. University of Jyväskylä. Elektron resurs: https://www.eaie.org/blog/finland-universities-immigrant-integration.html
7. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası: Monoqrafiya. Bakı: Elm, 2010, 800 s.
8. Əhmədov H.H. Elm və təhsilin inteqrasiyası // Kurikulum, 2022, № 4, s. 5-10.


**E-mail:** kazimliferide98@gmail.com

**Rəyçilər:** *ped.e.d., prof.* **H.H. Əhmədov**,
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**